## Samsung ilə “Mətbəx Giveaway” Qaydaları

**Təşkilatçı:** “MEDIAFORCE” MMC
**Tədbirin adı:** Samsung Mətbəx “Giveaway”
**Tarix:** 07.05.2025 – 29.05.2025

### Müsabiqə (Giveaway) Şərtləri

1. Samsung Azərbaycan rəsmi sosial media səhifələrini izlə:
    - Instagram: @samsungaze
    - TikTok: @samsung_azerbaijan
2. Müvafiq postun rəy bölməsində 3 dostunu işarələ.
3. Postu öz sosial media hesabında (Instagram və ya TikTok) hekayə kimi paylaş.

### Müsabiqə Müddəti və Hədiyyə

Samsung ilə “Mətbəx Giveaway”: 7 May – 29 May
*Qaliblər 3 iyun tarixində elan olunacaq.

**Hədiyyəyə daxildir:**

- Soyuducu RB53DG703EB1WT
- Qabyuyan DW60M6050BB/WT
- Soba NV7B41207AK/WT
- Aspirator NK24M5070BG/UR
- Qaz plitəsi NA64H3030AK/WT
- Mikrodalğalı soba MS23A7013AB/BW

**Qeyd:** Sadalanan məhsullar toplu halında 1 şanslı qalibə təqdim olunacaqdır.

### Müsabiqədə İştirak Şərtləri

- Yetkinlik yaşına çatmış hər bir Azərbaycan vətəndaşı müsabiqədə iştirak edə bilər.
- İştirakçı hər hansı şirkəti, təşkilatı və ya dövlət qurumunu təmsil etmədən fərdi şəxs kimi müsabiqədə iştirak edə bilər.

**Qeyd:** İştirakçı müsabiqə qaydalarını və şərtlərini pozduğu anda və ya ədalətsiz davranış sərgilədiyi aşkar edildikdə, avtomatik olaraq müsabiqədən kənarlaşdırılacaq.

### Qalib Şəxsin Elan Olunması

Qalib, “Random.org” proqramı vasitəsilə müsabiqə şərtlərinə tam əməl edən iştirakçılar arasından təsadüfi olaraq seçiləcək. Qalib aşağıdakı tarixdə Samsung Azərbaycan-ın rəsmi Instagram və TikTok səhifələrində keçirilən canlı yayımda elan olunacaq:

- 3 İyun 2025, saat 12:00

## Sosial Media Hesablarının Doğrulanması

"Samsung Azərbaycan Mətbəx Giveaway" müsabiqəsinin şəffaflığını və ədalətliliyini təmin etmək məqsədilə iştirakçıların sosial media hesablarının və şəxsiyyətlərinin doğrulanması üçün aşağıdakı prosedurlar tətbiq olunacaq:

1. **İştirak Şərtlərinə Uyğunluğun Yoxlanılması:**
    - İştirakçının 18 yaşdan yuxarı olması və Azərbaycan Respublikasının vətəndaşı olması tələb olunur.
2. **Sosial Media Hesabının Qiymətləndirilməsi:**
    - Təşkilatçı, iştirakçının sosial media hesabının həqiqiliyini qiymətləndirmək hüququna malikdir. Bu qiymətləndirmə aşağıdakı meyarları əhatə edə bilər:
        - Hesabın yaradılma tarixi və fəaliyyəti.
        - Profil şəkli və bio məlumatlarının mövcudluğu.
        - İzləyici və izlənilənlərin sayı və qarşılıqlı əlaqələri.
        - Hesabın yalnız müsabiqədə iştirak məqsədi ilə yaradılmadığının təsdiqi.
3. **Birbaşa Əlaqə və Təsdiq:**
    - Potensial qaliblə, iştirak etdiyi platforma vasitəsilə birbaşa əlaqə saxlanılacaq. Onlardan aşağıdakılar tələb oluna bilər:
        - Müsabiqə şərtlərinə uyğun iştirak etdiklərini təsdiq etmək.
        - Hesabın onlara məxsus olduğunu sübut etmək üçün əlavə məlumat təqdim etmək.
4. **Şəxsiyyətin Doğrulanması:**
    - Qalibin şəxsiyyətini təsdiq etmək üçün etibarlı şəxsiyyət vəsiqəsi (məsələn, şəxsiyyət vəsiqəsi və ya pasport) təqdim etməsi tələb olunacaq.
    - Təqdim olunan sənəddəki ad və soyad, iştirakçının sosial media hesabında göstərilən məlumatlarla uyğun olmalıdır.
5. **Diskvalifikasiya Şərtləri:**
    - Təşkilatçı, aşağıdakı hallarda iştirakçını diskvalifikasiya etmək hüququna malikdir:
        - Sosial media hesabının saxta və ya yalnız müsabiqədə iştirak məqsədi ilə yaradıldığı müəyyən edildikdə.
        - Yuxarıda göstərilən doğrulama prosedurlarına əməl edilmədikdə.
        - Təqdim olunan məlumatlarla şəxsiyyət sənədləri arasında uyğunsuzluq aşkar edildikdə.

---

## Məhsulların Təhvil və Təslimi

Qalibin həqiqiliyi təsdiq olunduğu andan onun ünvan məlumatları qalibin təqdim etməsi ilə qeydə alınır. Məhsulların, Samsung Azərbaycanın əməkdaşlıq etdiyi partnyorun anbarından yeni vəziyyətdə qeyd olunan ünvana çatdırılması həyata keçirilir.

**Qeyd:** Məhsullar birbaşa qalib və ya onun yaxın ailə üzvləri tərəfindən təhvil alına bilər. Hər bir halda şəxsiyyəti təsdiq edən sənədin təqdim olunması zəruridir.

---

## Bizimlə Əlaqə

- Samsung Azərbaycan sosial media səhifələri:
  - Instagram/Facebook: @samsungaze
  - TikTok: @samsung_azerbaijan
- Samsung Azərbaycan vebsaytında Onlayn Çat:
  - https://www.samsung.com/az/support/chat/
- Samsung Azərbaycan Zəng Mərkəzi:
  - 0-88-55-55-555 (Azercell, Nar, Bakcell abunəçiləri üçün şəhər və mobil telefonlardan pulsuz)
  - 0123108555 (Zəng ödənişlidir)

**Qeyd:** Dəstək xidməti bazar ertəsindən cümə gününə qədər saat 09:00-dan 18:00-dək fəaliyyət göstərir.

---

## Məlumatların Məxfiliyi

- Doğrulama prosesi zamanı toplanan şəxsi məlumatlar və sənədlər, Azərbaycan Respublikasının qüvvədə olan məlumatların qorunması qanunvericiliyinə uyğun olaraq məxfi saxlanılacaq və yalnız iştirakçının uyğunluğunu təsdiq etmək məqsədi ilə istifadə olunacaq.